**MƏDƏNİYYƏT DÜNYASI**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025**
**МИР КУЛЬТУРЫ**
**Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025**
**THE WORLD OF CULTURE**
**Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025**

**UOT 76**
**ORCID: 0009-0007-7471-7927**
**https://doi.org/10.52094/QCWG1920**

**Sevinc Əliyeva Qaçay qızı**
**Bakı Xoreoqrafiya Akademiyası**
**eliyevasevin88@mail.ru**

# MÜASİR AZƏRBAYCAN RƏNGKARLIĞINDA QARABAĞ MÖVZUSU

**Xülasə:** Məqalədə müasir Azərbaycan rəngkarlıq sənətində Qarabağ mövzusundan danışılır. Müəllif qeyd edir ki, bu mövzu müstəqillik illərində Azərbaycan təsviri sənətində ən aktual mövzulardan biridir. 2020-ci ildə qazanılmış böyük qələbədən sonra həmin mövzu əsaslı surətdə dəyişmişdir. Əgər əvvəllər bu mövzuda kədər motivləri üstün idisə, hazırda bu, bayram əhvali-ruhiyyəsi ilə əvəz edilmişdir. İndi rəssamlar bu mövzuya müraciət edərkən Azərbaycan ordusunun qələbəsini, Qarabağın dirçəldilməsini əks etdirirlər. Məqalədə Vüqar Əli, İsa Məmmədov, Əşrəf Heybətov, Rza Avşarov və başqa rəssamların Qarabağ mövzusunda olan əsərləri təhlil edilmişdir.
**Açar sözlər:** Müasir incəsənət, rəngkarlıq, Qarabağ mövzusu, Vüqar Əli, Əşrəf Heybətov.

Müstəqilik dövrü Azərbaycan təsviri sənətinin diqqət çəkən əsas mövzularından biri, şübhəsiz ki, Qarabağ mövzusudur. Həmin mövzu təsviri sənətdə hələ müstəqillikdən bir qədər əvvəl, ötən əsrin sonlarına yaxın - 88-89-cu illərdə formalaşmağa başlamışdı. Lakin illər ötüb keçdikcə onun məzmunu xeyli dərəcədə dəyişilmiş, bu mövzu diqqəti cəlb edən bəzi nüanslar, yeni forma, üslub və məzmun xüsusiyyətləri əldə etmişdir. Belə demək mümkündür ki, Qarabağ mövzusu müasir Azərbaycan təsviri sənətində sürətlə dəyişən, yeni məzmun, məna çalarları kəsb edən əsas mövzulardan biridir.

Zənnimizcə, təsviri sənətdə Qarabağ mövzusunu üç müxtəlif süjet tipinə ayırmaq olar:

- Müharibə fəlakətlərini əks etdirən süjetlər;
- Qəhrəmanlıq süjetləri;

- Zəfər döyüşləri ilə əlaqədar olan, sevinc və fərəh hissləri əks etdirən süjetlər.

Əgər biz bu bölgüyə zaman müstəvisində yanaşsaq, müharibənin ağrı-acılarını əks etdirən bədbin əhvali-ruhiyyəli əsərlərin 90-cı illərə aid olduğunu aydın görə bilərik. Bu, təbii təsir bağışlayır, çünki həmin illərdə çətin sosial-iqtisadi vəziyyət, mədəni və mənəvi dəyərlərin tənəzzülü, cəbhədəki ağır durum cəmiyyətdə bir böhran yaratmışdı. Həmin illərdə təsviri sənətdə, o cümlədən Qarabağ mövzusunda özünü aydın büruzə verən pessimist ovqat bununla əlaqədardır. Bu mövzunun bir hissəsi kimi, 1990-cı il 20 yanvar hadisələrini əks etdirən əsərləri də yada salmaq yerinə düşər. Həmin pessimist ovqatın ən acı səhifəsini isə Xocalı soyqırımına aid əsərlər təşkil edir. Rza Avşarovun "Xocalı faciəsi", Əşrəf Heybətovun "Xocalı", Həmzə Abdullayevin "Yandırılmış vətən", Nizami Hüseynovun "Xocalı. Böyük oyunun kiçik qurbanları" və bir sıra başqa əsərlər məhz pessimist məzmuna malik olub o dövrdə, əsasən 90-cı illərdə yaradılmışdır. Biz bu siyahıya Ağa Mehdiyevin, Nazim Məmmədovun, Əyyub Məmmədovun, Vaqif Ucatayın, Hafiz Məmmədovun, Səyyad Bayramovun, Sara Manafovanın və bir çox başqalarının işlədiyi tabloları da daxil edə bilərik. Həmin əsərlərdə Qarabağ mövzusunun ağrılı səhnələri realist, emosional və təsirli formalarda əks etdirilmişdir [1, s. 112-114]. Qeyd edək ki, bu mövzu karikatura sənətində də öz əksini tapmışdır [3].

90-cı illərin sonundan və 2000-ci illərin əvvəllərindən etibarən Qarabağ mövzusunda qəm-kədər motivləri ilə yanaşı, həm də müəyyən qəhrəmanlıq süjetləri əks olunmağa başladı. Milli kimliyin, milli şüurun inkişafı, döyüş və qələbə əzmi rəssamları məhz qəhrəmanlıq mövzusunda əsərlər yaratmağa ruhlandırırdı. Ümummilli lider Heydər Əliyev haqlı olaraq deyirdi ki, 20 yanvar faciəsi Azərbaycan xalqının təkcə kədəri deyil, həm də şahlı qəhrəmanlıq salnaməsidir. Bu fikir təsviri sənətdə Qarabağ mövzusunun ikinci əsas süjet dəst-xəttinin – qəhrəmanlıq motivlərinin ideya əsasına çevrildi. Həmin illərdə Heydər Əliyevin səyləri nəticəsində ordu quruculuğunda ciddi addımlar atıldı, cəbhənin Beyləqan-Füzuli hissəsində qələbələr qazanıldı, xalqın, millətin özünə, qələbəyə inamı artdı, insanlar Qarabağ döyüşlərinin qəhrəmanlarını daha yaxşı tanımağa başladılar. Həmin dövrün qəhrəmanlıq mövzusunun əsas ümumiləşdirici nümunələrindən biri kimi Vaqif Ucatayın "Şərəfli insanlar" (2001) tablosunu yada salmaq olar. Tabloda Birinci Qarabağ müharibəsində bir ayağını itirmiş Azərbaycan döyüşçüsü təsvir olunub. Orta yaşlı bu kişi başını dik tutaraq üzü

tamaşaçıya doğru məğrur görkəmdə dayanmışdır. Onun yanında durmuş vəfalı həyat yoldaşı əlini onun çiyninə qoyaraq sanki ona dəstək olmağa çalışır. Nəzərlərini aşağı dikmiş ismətli qadın öz ərinin qəhrəmanlığından şərəf duyur. Tabloda əsl Azərbaycan kişisinin qəhrəmanlığı və əsl Azərbaycan xanımının vəfası, sədaqəti, həya-isməti olduqca aydın tərzdə, dolğun, realist cizgilərlə təqdim edilmişdir.

Qarabağ mövzusundakı üçüncü əsas istiqamət, dediyimiz kimi, zəfər sevinci ilə aşıb-daşan nikbin əhvali-ruhiyyəli süjetlərdən ibarətdir. Bu süjetlər təsviri sənətdə əsasən 2016-cı ilin uğurlu aprel döyüşlərindən sonra meydana çıxmış, bir qədər sonra, 2020-ci ilin 44 günlük Zəfər yürüşü nəticəsində Qarabağ tematikasının aparıcı mövzusuna çevrilmişdir.

Rəngkarlıqda Qarabağ mövzusunda zəfər və sevinc ovqatını əks etdirən tablolar müxtəlifdir. Buraya qəhrəmanlıq, Azərbaycan əsgərinin hünəri, Azərbaycan-Türkiyə dostluğu, xalqın sevinci, azad edilmiş ərazilərimizin bərpası, dirçəldilməsi və digər bu kimi süjetlər daxildir. Təsviri sənətdə Qarabağ tematikasının bu sonuncu və ədəbi mövzusuna bir çox rəssamlar müraciət etmişlər. Həmin mövzuda Asif Azərelli, Əşrəf Heybətov, Vüqar Əli, Elşən Hacızadə, Zöhrab Cabbarov və başqaları yaddaqalan tablolar çəkmişlər.

Böyük Zəfər mövzusu Əməkdar rəssam Vüqar Əlinin tablolarında əks olunub. Onun 2020-ci ildə, böyük zəfər günlərində yaratdığı "Qələbə" tablosu sevinc və qəhrəmanlıq hisslərini aydın şəkildə əks etdirir. Kompozisiyanın mərkəzində şahə qalxan ağ ata minmiş cəsarətli, qamətli və qalib Azərbaycan əsgəri əks olunub. O, üzünü yana çevirərək sol əlini yuxarı qaldırmış, barmaqlarını güclü yumruq formasında bükmüşdür. Bu jest məşhur "Dəmir yumruq" jestini xatırladır. Əsərin fonu başdan-başa üçrəngli Azərbaycan bayrağının rənglərindən ibarətdir. Bu, Azərbaycanın zəfərini, onun bayrağına qalibiyyətin yaraşdığını vizual bədii ifadə formaları vasitəsilə qabarıq əks etdirir (şəkil 1).

İstedadlı fırça ustası Camaləddin İsmayılov əsasən batalist rəssam kimi tanınır. O, Azərbaycanın, türk dünyasının taleyüklü döyüş səhnələrini kətan üzərində canlandırmışdır. Bunlar həm qədim türk tarixinə, həm də sonrakı dövrlərə aid olan mürəkkəb kompozisiyalı çoxfiqurlu əsərlərdir.

Camaləddin İsmayılovun Qarabağ zəfəri mövzusunda işlədiyi əsas tablolardan biri "Şuşanın azad edilməsi" adlı iri ölçülü əsərdir (2020). Rəssamın özünün dediyi kimi o, həmin əsər üzərində işə hələ 2020-ci ilin noyabr ayının ilk

günlərində başlamış, doğma Şuşanın azad edilməsi xəbəri gəldikdə isə böyük həvəslə, ruh yüksəkliyi ilə işləyərək əsəri tamamlamışdır.

İmpressionist rəssamların yaradıcılığını xatırladan zərif göy-mavi və çəhrayı rəng yaxmaları Əməkdar rəssam İsa Məmmədovun yaradıcılığının əsas cəhətlərindən olmuşdur. Onun 2021-ci ildə işlədiyi "Şuşa. Qələbə günü" əsərində bu zərif rənglər əsl bayram əhvali-ruhiyyəsi yaradır. Kompozisiyada Şuşanın mərkəzi hissəsi əks olunmuşdur. Arxa planda Gövhər Ağa məscidi görünür. Məscidin qarşısındakı meydanda bayram izdihamı diqqəti cəlb edir. Ətraf sahələrdə Azərbaycanın və qardaş Türkiyənin bayraqları vüqarla dalğalanır. Əsər Zəfər mövzusunun yaddaqalan, nikbin, major xarakterli nümunələrindən biri kimi qiymətləndirilə bilər.

Qeyd etdiyimiz kimi, Qarabağ mövzusu müstəqillik dövrü təsviri sənətinin əsas mövzularından biridir. Bir çox Azərbaycan rəssamı bu mövzuya müraciət etmişdir. Həmin əsərlərdə Qarabağın təbiət obrazının milli rəmz-işarə semantikası müstəqillik ideyaları və milli xarakter kontekstində öz təcəssümünü tapır.

Yaradıcılığında Qarabağ mövzusunun geniş təmsil olunduğu sənətkarlardan biri də Xalq rəssamı Əşrəf Heybətovdur. O, müxtəlif mövzularda əsərlər işləmiş, müasir təsviri sənətdə insan və təbiət obrazının fərqli nümunələrini yaratmışdır. Rəssamın müxtəlif mövzularında çəkdiyi tablolarda folklor motivləri, milli-məişət elementləri, ekzistensial qəhrəman surətləri mühüm yer tutur.

Əşrəf Heybətovun müraciət etdiyi janrlardan biri də mənzərədir. Rəssam şəhər mənzərələri ilə yanaşı, doğma Azərbaycanın füsunkar təbiətini əks etdirən mənzərə əsərləri də çəkmişdir. Bu mənzərələrdə təbiət obrazı milli xarakterlə səsləşərək müasir incəsənətdə həmin janrı yeni ifadə formaları ilə zənginləşdirir.

Əşrəf Heybətov vətənpərvər rəssamdır. 30 ildən artıq qürbətdə yaşamasına baxmayaraq vətən ilə əlaqələrini heç zaman kəsməyib. Təsadüfi deyil ki, onun tematikasında Azərbaycan mövzusu əsas yer tutur və müxtəlif səpkili milli obrazlar vasitəsilə təcəssüm olunur.

Qarabağ mövzusu rəssamın çox müraciət etdiyi mövzulardandır. Son illərdə bu mövzu onun yaradıcılığında mühüm bir mərhələ təşkil edir. 2020-ci ilin noyabr ayında Əşrəf Heybətov "Qarabağda Qələbə bayramı" adlı böyük bir triptix yaratdı. Həmin triptixdə sevinən, əl-ələ tutub oynayan, yallı gedən insanlar, qəhrəman Azərbaycan əsgərləri, Qarabağın tarixi-memarlıq abidələri

öz əksini tapır. Maraqlıdır ki, bu çoxfiqurlu triptixdə rəssam Qarabağın tanınmış mədəniyyət xadimlərinin – Xan qızı Natəvanın, Üzeyir Hacıbəylinin və başqalarının obrazlarını da işləmişdir. Triptixin ümumi yaşıl fonu kompozisiyanı daha əlvan, canlı göstərməklə yanaşı, həm də Qarabağ torpağının bərəkətini, yaşıl meşələrini, geniş yaylaqlarını simvolizə edir. Triptixin mərkəzində əlində üçrəngli Azərbaycan bayrağını tutan igid Azərbaycan döyüşçüsünün əzəmətli fiquru yer alır (şəkil 2).

“Qarabağda Zəfər bayramı” triptixi Əşrəf Heybətovun yaradıcılığında bir növ hesab nöqtəsidir. Rəssam həmin əsər vasitəsilə həm zəfər sevinci tematikasını rəngkarlıqda parlaq boyalarla əks etdirmiş, həm də öz vətən sevgisini insanların diqqətinə çatdırmışdır. Əşrəf Heybətovun özü əsəri barəsində belə deyir: “ “Qarabağda Qələbə bayramı” monumental triptixinin yaradarkən hər bir azərbaycanlı üçün dəyərli olan torpağın rəmzlərini – dahi bəstəkar Üzeyir Hacıbəylinin, gözəl şairə Xurşidbanu Natəvanın, yalnız burada bitən ecazkar Xarıbülbülün, “Yallı” rəqsinin və təbii ki, qəhrəmanlarımızın – doğma torpaqları azad edərək canlarını əsirgəməyən əsgər və zabitlərimizi təsvir etmişəm. Olduğu kimi deyəcəyəm: əlimdən gələni tam etmişəm. Mən orada hər şeyi demişəm. Düşünürəm ki, digər rəssamlar hələ daha çox şey edəcəklər”. [2]

Əşrəf Heybətov Qarabağ zəfərini yaradıcılıq töhfələri ilə qarşılayan ilk rəssamlardandır. Hələ 44 günlük müharibənin ilk günlərindən qələbəyə inanan və bu inamdan bir an belə geri çəkilməyən rəssam Qarabağ təbiətini, tarixi-memarlıq abidələrini əks etdirən silsilə əsərlər işləməyə başladı. Bu əsərlərin ümumi sayı 44-dür. Hər bir əsər Zəfərə aparan 44 günlük yolun bir gününə həsr olunub. Həmin 44 əsər 2021-ci ildə çap olunmuş “Qarabağa gedən 44 günlük yol” adlı kitab-albomda öz əksini tapdı. Xalq rəssamı Əşrəf Heybətovun “Qarabağa gedən 44 günlük yol” mövzusuna dair əsərlərin yaranması təsadüfi olmayıb. Bu, simvolik, rəmzi məna daşıyır. Doğma Qarabağa gedən yol Azərbaycanın sanki ürəyi, onun qəlbidir. Bu böyük yol azadlıq, firavanlıq yoludur. Bu yol Azərbaycan xalqının çəkdiyi əzabların bitməsinin sanki xəbəridir. Bu yol Qarabağdan qovulan bir milyon insanın öz yurdlarına, evlərinə qayıtmaq yoludur. Maraqlıdır ki, rəssam yağlı boya ilə işlənmiş bu tablolara ad verməyib. Onları 1-dən 44-ə qədər sıralamaq, rəqəmlərlə bir-birindən ayırmaq olar. Rəssam bu tabloları əsasən tünd boyalarla işləyib ki, bu da şəhidlərin xatirəsinə bir işarədir. Lakin sözü gedən tablolarda major əhvali-ruhiyyə də özünü büruzə verməmiş deyil. Bu, yaxınlaşmaqda olan zəfərin duyulması ilə

əlaqədardır. Silsiləyə daxil olan kompozisiyalarda Qarabağın təbiəti, Şuşanın tarixi-memarlıq abidələri, milli xarakteri əks etdirən rəmzlər yer alır.

Gövhər Ağa məscidinin əks olunduğu tablo sakit, eyni zamanda ekspressiv sükutu ilə diqqət çəkir. Rəssam məscidin hələ işğal dövründəki görünüşünü əks etdirib. Minarələrin şərəfələri dağıdılmış, məscid sanki kimsəsiz, boş qalmışdır. Tabloda hiss olunan intuitiv psixologizm məhz bunun üzərində bərqərar olmuşdur. Lakin bir az vaxt keçəcək, qüdrətli Azərbaycan ordusu əziz Şuşanı işğaldan azad edəcəkdir!

Şuşanın tarixi-memarlıq abidələri, şəhərin ətrafındakı mənzərəli, yaşıl dağlar bədii obrazın rəmz-işarə semantikasının mükəmməl daşıyıcılarıdır. Onun əsasında rəssamın mövzuya vətənpərvərlik mövqeyindən yanaşması, doğma torpağı ilə qürur duyması amili dayanır. Seriyaya daxil olan son tabloda Xarı bülbül təsvir olunub. Təbii ölçüdən çox-çox böyük olan, başı az qala buludlara dirənən bu milli rəmz mənəvi ucalığı, qələbədən doğan qürur hissini, geniş anlamda milli mədəniyyəti, mənəviyyatı ifadə edir.

Əşrəf Heybətovun tablolarında Qarabağ mövzusu həm şəxsiyyət, həm də təbiət müstəvisində təcəssüm olunur. Rəssamın yaratdığı qəhrəman Azərbaycan əsgərinin obrazı şəxsiyyət obrazları silsiləsinə daxildir. Qarabağdan danışdıqda bu obraz ən əzəmətli surət kimi gözlərimiz önündə canlanır. Rəssam eyni zamanda maraqlı təbiət obrazları da yaratmışdır ki, bunlar Qarabağ mövzusunu həm bədii, həm də mənəvi müstəvidə xeyli zənginləşdirir. Bu baxımdan Qarabağ dağları və xaribülbül xüsusi əhəmiyyət daşıyır. Bu təbiət obrazları mətinlik və zəriflik müstəvisində doğma Qarabağın təbiət obrazını əks etdirir.

Əşrəf Heybətovun Qarabağ mənzərələrində milli xarakter özünü dolğun büruzə verir. Milli xarakter Azərbaycan təbiətinə xas olan bədii motivlər, xarakterik kolorit vasitəsilə gerçəkləşdirilir. Bütün bunlar rəssamın mənzərələrində təbiət obrazının rəmzi-işarə semantikasını daha aydın göstərir. Xarakterik təbiət lövhələri, rəmzi məzmun daşıyan bədii elementlər, rəssamın dünyagörüşünün ideya-bədii istiqaməti Qarabağ tabloları silsiləsində rəmz-işarə semantikasını, onun daşıdığı məna yükünü milli vətənpərvərlik müstəvisində ifadə edir. Milli xarakterin vətənpərvərlik müstəvisində əks olunan formaları müasir təsviri sənətdə mühüm yer tutur. Milli qəhrəmanların obrazları, 44 günlük qələbənin bu və ya digər epizodunu əks etdirən tablolar müasir incəsənətdə mühüm yer tutur.

İstedadlı fırça ustası, Əməkdar rəssam Rza Avşarov Qarabağ mövzusunda yaradılmış bir sıra əsərlərin müəllifidir. Onun yaradıcılığında bu mövzu xeyli geniş təmsil olunub. Rza Avşarovun 2021-ci ildə, böyük Zəfərin ildönümü ərəfəsində kətan üzərində yağlı boya ilə çəkdiyi "Zəfər" kompozisiyası adından göründüyü kimi, böyük qələbəyə həsr edilmişdir. Kompozisiya nisbətən sadə, eyni zamanda möhtəşəm təsir bağışlayır. Burada Azərbaycan Respublikasının Prezidenti, müzəffər ali baş komandan İlham Əliyev ön planda təsvir olunmuşdur. O, sağ əlini qələbə jesti ilə yuxarıya qaldırıb. Ali baş komandanın əynində hərbi geyim vardır. Arxa planda isə yenicə azad edilmiş Şuşanın qüdrətli qala divarları, divarın üstündən asılmış, düşmənə göz dağı olan böyük bir Azərbaycan bayrağı görünür. Əsərin kolorit həllində göy rəng çalarları üstündür.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, rəngkarlıqda Qarabağ mövzusunun transformasiyası koloritdə də özünü aydın göstərir. Birinci süjet tipində kolorit həllində qırmızı rəng çalarları üstündür. Bu, əlbəttə ki, qan rənginə işarədir. Hətta eyni bir rəssamın yaradıcılığında Qarabağ mövzusunun birinci və üçüncü tipləri rəng həllinə görə dəyişir. Birinci variantda – kədər variantında qara və qırmızı, üçüncü – Zəfər variantında isə göy-yaşıl rənglər üstündür. Misal üçün, Əşrəf Heybətovun "Xocalı" tablosunda qanla assosiasiya olunan qırmızı rəng üstündür, lakin rəssamın 2020-ci ildə çəkdiyi "Qarabağda zəfər bayramı" triptixində isə əksinə, əmin-amanlıq rəmzi olan göy-yaşıl rəng kompozisiyanın kolorit həllinin əsasında dayanır. Eləcə də Rza Avşarovun 90-cı illərə çəkdiyi "Xocalı faciəsi" əsəri qırmızı və qara rənglərdən təşkil olunduğu halda həmin rəssamın yuxarıda haqqında danışdığımız "Zəfər" tablosunda yenə də göy-yaşıl rənglər üstündür. Buradan aydın görünür ki, Qarabağ mövzusu daxilindəki transformasiyalar rəssamların rəng seçiminə ciddi təsir göstərir.

Müasir dövrdə Qarabağ mövzusunun mühüm istiqamətlərindən birini şəhid və qazilərimizin portretləri təşkil edir. Bu mövzuda bir çox əsərlər yaradılmışdır. Rəssam Ehtiram Məmmədovun çəkdiyi şəhid general Polad Həşimovun portreti buna misal ola bilər. Realist üslub tərzi ilə diqqəti cəlb edən həmin portretdə Polad Həşimovun gülümsər simasının tanış cizgiləri böyük ustalıqla, səmimiyyətlə əks olunub.

Qarabağ mövzusu müasir Azərbaycan təsviri sənətinin prioritet mövzularından biridir. Həmin mövzu üçün əvvəllər xarakterik olan kədər və ümidsizlik motivləri artıq öz ömrünü başa vurmuşdur. Müasir dövrdə rəssamlar, xüsusən gənclər, bu mövzunu tamamilə başqa, fərqli kontekstdə qəbul edirlər.

Qarabağ mövzusu zəfər, sevinc, bayram ovqatı, el şənliyi, qurub-yaratmaq əzmi ilə assosiasiya olunur [2]. Şübhə etmirik ki, işğaldan azad edilmiş torpaqlarımız bərpa edildikcə Zəfər mövzusu daha da genişlənəcək, yeni çalarlar, nüanslar qazanacaqdır. Bunun əsasında isə minordan majora doğru yönəlmiş böyük və əbədi dönüş, qalib Azərbaycan ordusunun yenilməz gücü, qüdrəti dayanır.

## ŞƏKİLLƏR:



**Şəkil 1. Vüqar Əli. “Qələbə”.**
**Kətan, yağlı boya. 2020.**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.**



**Şəkil 2. Əşrəf Heybətov. "Qarabağda Qələbə bayramı".**
**Kətan, yağlı boya. 2020.**
**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi muzeyi. Bakı.**

## Ədəbiyyat siyahısı

1. Azərbaycan və dünya incəsənətində soyqırım mövzusu (kollektiv nəşr). B:, 2015.
2. Əşrəf Heybətov: "Yaradıcılığımın əsas mövzusu Vətənim, Azərbaycanımdır" [Elektron resurs] / URL: https://veteninfo.az/esref-heybetov-yaradiciligimin-esas-movzusu-vetenim-azerbaycanimdir (müraciət tarixi: 19.08.2023)
3. Kərimov K. Hiddət və nifrət. B:, 2008.

**Sevinj Aliyeva Gachay gizi**

**The Theme of Karabakh in Contemporary Azerbaijani Painting**

**Summary:** This article examines the theme of Karabakh in contemporary Azerbaijani painting. The author notes that this theme has been one of the most pressing in Azerbaijani fine art since independence. Following the great victory achieved in 2020, the ideological and thematic basis of this theme has changed radically. Previously dominated by motifs of sadness, they have now been replaced by a festive mood. Now, in addressing this theme, artists reflect the victory of the Azerbaijani army and the revival of Karabakh. The article analyzes

works by Vugar Ali, Isa Mammadov, Ashraf Heybatov, Rza Avsharov, and other artists dedicated to the theme of Karabakh.

**Key words:** Contemporary art, painting, Karabakh theme, Vugar Ali, Ashraf Heybatov

**Севиндж Алиева Гачай гызы**

**Тема Карабаха в современной азербайджанской живописи**

**Резюме:** В статье рассматривается тема Карабаха в современной азербайджанской живописи. Автор отмечает, что эта тема является одной из самых актуальных в азербайджанском изобразительном искусстве в годы независимости. После великой победы, одержанной в 2020 году, идейно-тематическая основа этой темы коренным образом изменилась. Если раньше в ней преобладали мотивы грусти, то теперь их сменило праздничное настроение. Теперь, обращаясь к этой теме, художники отражают победу азербайджанской армии и возрождение Карабаха. В статье анализируются работы Вугара Али, Исы Мамедова, Ашрафа Гейбатова, Рзы Авшарова и других художников, посвящённые теме Карабаха.

**Ключевые слова:** Современное искусство, живопись, тема Карабаха, Вугар Али, Ашраф Гейбатов.